**UDC:** 1 (091)
**LBC:** 87.3(0); 88.1; 60.03
**MJ №** 400
10.33864/2617-751X.2025.v8.i8.187-195

# SOCIO-POLITICAL EVENTS IN THE NORTHWESTERN REGION OF SOUTH AZERBAIJAN IN OTTOMAN DOCUMENTS (the late 19th century - early 20th century)

**Yakhshikhanim Nasirova***

**Abstract.** The history of Azerbaijan of the 19th-20th centuries was comprehensively studied. The first source we turn to in order to fully cover this period in the Caucasus region and South Azerbaijan, when political-military conflicts raged, socio-economic processes expanded or declined, and to correctly understand and evaluate the events is archival documents. It is precisely the study of these documents that allows us to look at the events in the region from a different perspective at a time when political games, interstate conflicts, and economic instability were expanding. The documents preserved in the archives are very important in terms of identifying and analyzing the subsequent perverse actions of the Armenians who fled to the region under various pretexts and settled there, and the activities of the forces that supported them. The Sultan’s decrees, interstate correspondence, letters sent by embassies to the palace, etc., preserved in the Ottoman archives of the Republic of Turkey, provides an opportunity to approach the socio-political processes of the mentioned period from the perspective of the Ottoman state and helps to determine the importance of the region for the Ottoman Empire, along with Russia and a number of powerful states of Europe. The documents we have applied for the purpose of investigating and analyzing the topic in more detail and based on new facts are mainly kept in the Ottoman Archives of the Prime Minister’s Office. Some sources were involved in the research for the first time. The archival documents were written in the “siyakat” writing, which was used in the official correspondence of the Ottoman state at that time without use of diacritical marks. The present article analyzes the socio-political events that took place in the western and northwestern regions of South Azerbaijan in the late 19th- early 20th centuries on the basis of Ottoman documents in order to clarify the unstable, mixed picture of that historical period.

**Keywords:** South Azerbaijan, Ottoman documents, Urmia, Khoy, Van

---

* Doctor of Philosophy in History,
Azerbaijan National Academy of Sciences, Institute of Oriental Studies named after Z.M. Bunyadov, Department of Turkish History and Economics; Baku Azerbaijan
E-mail: yaxshi.seli@bk.ru
https://orcid.org/0000-0003-4020-0472
**To cite this article:** Nasirova, Y. [2025]. SOCIO-POLITICAL EVENTS IN THE NORTHWESTERN REGION OF SOUTH AZERBAIJAN IN OTTOMAN DOCUMENTS (the late 19th century - early 20th century). *“Metafizika” journal, 8*(8), pp.187-195.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.187-195

***Article history:***
*Received: 30.09.2025*
*Accepted: 27.10.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 1 (091)
**ББК:** 87.3(0); 88.1; 60.03
**MJ №** 400
10.33864/2617-751X.2025.v8.i8.187-195

# СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ СОБЫТИЯ В СЕВЕРО-ЗАПАДНОМ РЕГИОНЕ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ОСМАНСКИХ ДОКУМЕНТАХ (конец XIX века – начало XX века)

**Яхшиханум Насирова***

**Абстракт.** Истории Азербайджана XIX–XX веков посвящено немало исследований. Бесспорно, первым источником, к которому мы обращаемся для полного освещения периода, когда в Кавказском регионе и Южном Азербайджане бушевали военно-политические конфликты, развивались или приходили в упадок социально-экономические процессы, а также для правильного понимания и оценки тех событий, являются архивные документы. Исследование именно архивных документов позволяет взглянуть на события, происходившие в регионе, в период обострения политических игр, межгосударственных конфликтов и экономической нестабильности, с новой точки зрения. Сохранившиеся в архивах документы имеют большое значение для выявления и анализа последующих злонамеренных действий армян, под разными предлогами перебежавших в регион и обосновавшихся здесь, а также деятельности поддерживавших их сил. Привлеченные к данному исследованию хранящиеся в османских архивах Турецкой Республики указы султана, межгосударственная переписка, письма, отправленные посольствами во дворец и прочие документы дают возможность рассмотреть общественно-политические процессы исследуемого периода с призмы Османского государства и помогают определить значение региона для его интересов, наряду с Россией и рядом могущественных европейских государств. Документы, привлеченные к нашему исследованию, хранятся в Османском архиве канцелярии премьер-министра Турецкой Республики. Стоит отметить, что некоторые источники исследуются впервые. Архивные документы написаны прописью «сийакат», который использовался при официальной переписке Османского государства без использования диакритических знаков. В статье на основе османских документов анализируются общественно-политические события, происходившие в западных и северо-западных регионах Южного Азербайджана в начале XIX-XX веков, и выявляется нестабильная, неоднозначная картина того периода.

**Ключевые слова:** Южный Азербайджан, османские документы, Урмия, Хой, Ван

* Доктор философии по истории,
Национальная Академия Наук Азербайджана, Институт Востоковедения им. акад. З.М. Буниятова, Отдел истории и экономики Турции; Баку, Азербайджан
E-mail: yaxshi.seli@bk.ru
https://orcid.org/0000-0003-4020-0472
**Цитировать статью:** Насирова, Я. [2025]. СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ СОБЫТИЯ В СЕВЕРО-ЗАПАДНОМ РЕГИОНЕ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ОСМАНСКИХ ДОКУМЕНТАХ (конец XIX века – начало XX века). *Журнал «Metafizika», 8*(8), с.187-195.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.187-195

***История статьи:***
*Статья поступила в редакцию: 30.09.2025*
*Отправлена на доработку: 27.10.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 1 (091)
**KBT:** 87.3(0); 88.1; 60.03
**MJ №** 400
10.33864/2617-751X.2025.v8.i8.187-195

# CƏNUBİ AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ BAŞ VERMİŞ İCTİMAİ-SİYASİ HADİSƏLƏR OSMANLI SƏNƏDLƏRİNDƏ (XIX əsrin sonu–XX əsrin əvvəlləri)

**Yaxşıxanım Nəsirova***

**Abstrakt.** Azərbaycanın XIX-XX əsr tarixini tədqiq edən çox sayda əsərlər yazılmışdır. Sözsüz ki, Qafqaz regionunda və Cənubi Azərbaycanda siyasi-hərbi münaqişələrin tüğyan etdiyi, sosial-iqtisadi proseslərin genişləndiyi və ya tənəzzül etdiyi bu dövrü tam əhatə etmək, hadisələri düzgün dərk edib qiymətləndirmək üçün müraciət etdiyimiz ilk mənbə arxiv sənədləridir. Məhz bu sənədlərin tədqiqi siyasi oyunların, dövlətlərarası qarşıdurmaların, iqtisadi sabatsızlığın genişləndiyi bir zamanda bölgədə baş verən hadisələrə fərqli bir mövqedən baxmağa imkan yaradır. Bölgəyə müxtəlif bəhanələrdə qaçıb gəlmiş, yerləşmiş ermənilərin sonradan törətdiyi azğın hərəkətlərini, onları dəstəkləmiş qüvvələrin fəaliyyətini müəyyənləşdirib təhlil etmək baxımından arxivlərdə qorunan sənədlər çox önəmlidir. Tədqiqata cəlb etdiyimiz Türkiyə Respublikasının Osmanlı arxivlərində qorunan Sultan fərmanları, dövlətlərarası yazışmalar, səfirliklər tərəfindən saraya göndərilən məktublar və s. qeyd olunan dövrdəki ictimai-siyasi proseslərə Osmanlı dövləti mövqeyindən yanaşmaq imkanını yaradır və regionun Rusiya və Avropanın bir sıra güclü dövlətləri ilə yanaşı Osmanlı İmperiyası üçün nə dərəcə əhəmiyyət daşıdığını müəyyən etməyə kömək edir. Mövzunun daha ətraflı və yeni faktlar əsasında araşdırılması və təhlili məqsədilə müraciət etdiyimiz sənədlər, əsasən, Başbakanlık Osmanlı Arxivində saxlanılır. Bəzi mənbələr ilk dəfə tədqiqata cəlb olunmuşdur. Arxiv sənədləri o dövrdə Osmanlı dövlətinin rəsmi yazışmalarında istifadə edilən və yazılarkən diakritik işarələrdən istifadə edilməyən siyaqət xətti ilə yazılmışdır. Məqalədə Osmanlı sənədlərinin əsasında XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycanın qərb və şimal-qərb bölgələrində baş vermiş ictimai-siyasi hadisələr təhlil olunacaq və həmin dövrün qeyri-sabit, qarışıq mənzərəsi müəyyən ediləcəkdir.

**Açar sözlər:** Cənubi Azərbaycan, Osmanlı sənədləri, Urmiyə, Xoy, Van

* Tarix üzrə fəlsəfə doktoru,
Azərbaycan Milli Elmlər Akademiyası, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Türkiyə tarixi və iqtisadiyyatı şöbəsi; Bakı, Azərbaycan
E-mail: yaxshi.seli@bk.ru
https://orcid.org/0000-0003-4020-0472
**Məqaləyə istinad:** Nəsirova, Y. [2025] CƏNUBİ AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ BAŞ VERMİŞ İCTİMAİ-SİYASİ HADİSƏLƏR OSMANLI SƏNƏDLƏRİNDƏ (XIX əsrin sonu–XX əsrin əvvəlləri). *“Metafizika” jurnalı, 8*(8), səh.187-195.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.187-195

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.09.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 27.10.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Yaxın Şərq və Qafqaz regionunda baş verən hərbi-siyasi, sosial-iqtisadi və mədəni proseslərin daim mərkəzində yer alan Cənubi Azərbaycan bölgəsi Avropa və Asiya qitələri arasında əlverişli geostrateji mövqeyə malik idi. Bu səbədən həmin ərazilərə regiondakı hadisələrin təsiri altında olurdu. XIX əsrin sonu – XX əsrin əvvəllərində Urmiyə, Salmas, Xoy və ətraf ərazilərdə baş verən daxili qarışıqlıqlar və xarici təcavüz nəticəsində bölgədə vəziyyət xeyli gərginləşmişdi. Siyasi-hərbi gərginlikdən əziyyət çəkən əhali iqtisadi böhrana və təsərrüfatların dağılmasına, ticarət əlaqələrinin pozulmasına dözməyərək böyük köçlər halında yaşayış yerlərini tərk edir, nisbətən sakit və əlverişli ərazilərdə yaşamağa başlayırdılar. Osmanlı dövlətindən, Rusiyadan, digər qonşu torpaqlardan Cənubi Azərbaycanın Xoy, Salmas bölgəsinə köçənlərin sayı gündən-günə artırdı.

## 2.Salmas XIX əsrin əvvəllərində Osmanlı sənədlərində

Bu torpaqlarda məskunlaşanlar arasında ermənilər üstünlük təşkil edirdilər. Bölgəyə gələn bu yeni sakinlər yerli əhaliyə qarşı silahlanır və ətraf evlərə hücumlar təşkil edirdilər. Dinc əhaliyə qarşı olmazın zorakılıqlar, yanğın və qarətlər törədən erməni dəstələrinin bu fəaliyyətinə dair Türkiyə Cümhuriyyəti Cümhurbaşkanlığı Dövlət Arşivləri Başkanlığı nəzdində Osmanlı Arxivində [Bundan sonra: BOA] saxlanılan sənədlərdə saysız hesabsız məlumatlar əks olunmuşdur. Sədarət-i azamiyə [Padşahdan sonra ən böyük səlahiyyətlərə malik olan və dövlət işlərini icra edən Sədrəzəmin vəzifəsini icra etdiyi idarə]. daxil olan 17 iyul 1311-ci il (1893/1894) tarixli teleqramda [BOA - A.}MKT.MHM. 536 15.002] Arseni adlı şəxsin rəhbərliyi altında “şapkalı” və “çizməli” [Uzunboğaz çəkmə] min nəfər piyada və beş yüz atlıdan ibarət silahlı dəstənin Salmasda toplaşması haqqında məlumat verilmişdir. Bu dəstələrin fitnə-fəsad törətdikləri və “Memalik-i Mahrusa” [Burada Osmanlı dövləti nəzərdə tutulur] [Vəliyeva-Önlen, 2024, s.41-42] üçün də təhlükə yaratdıqları qeyd olunmuşdur. Bu dəstələrin Osmanlı torpaqlarına təcavüzünün qarşısının alınması məqsədilə Hamidiyə 17-ci süvari alayının miralayı [Polkovnik rütbəsinə uyğundur] İsa bəyin məlumatına əsasən tədbir görülməsi və məlumatın bir daha yoxlanılması uyğun görülmüşdür. Növbəti məlumatlarda göstərilmişdir ki, Xoyda və Salmasda təhlükəsizlik məqsədilə iki yüz əsgər, Qotur civarında isə iki min atlı yerləşdirilmişdir. Məlumatda həmçinin Salmas tərəflərdə otuz erməni fədaisinin dolaşdığı bildirilmişdir. Tehran Səfarət-i Səniyəsinə [Səfirlik] və Van vilayətinə göndərilən teleqramda təhlükənin qarşısının alınması və Osmanlı kürdlərinin müdafiəsi məqsədilə Vanda toplaşan ermənilərə qarşı bir süvari taburu yerləşdirilməsinin daha münasib olması göstərilmişdir.

Van vilayətindən gələn başqa bir teleqramda [BOA - A.}MKT.MHM. 536 15. 010] isə “İranın Salmas, Xoy, Urmiyə və Həftəvan tərəflərində bəzi erməni kəndlərində Rusiya, İraq və Van ermənilərindən” bir dəstənin təşkil edilərək

silahlandırılması və baharda sərhədi keçidi planlaşdırılması, silah və mühimmat hazırlanması üçün hazırlıqların görülməsi haqqında məlumat verilmişdir. Göytəpə və Salmas qəsəbələrində şəhərdən xüsusi dəzgahların gətirildiyi və quraşdırıldığı da qeyd edilmişdir. Həmçinin bu dəstələrin xarici ölkələrdən təlimatlandırılan misyonerlərin bilavasitə nəzarətində olduğu və idarə edildiyi həyəcanla ifadə edilmişdir. Vali Nazimin hesabatında yaradılmış təşkilatların sərbəst şəkildə fəaliyyət göstərməsinin qarşısının tez bir zamanda alınması və bölgədən çıxarılması üçün lazım gələn tədbirlərin həyata keçirilməsinin zəruriliyi təkidlə vurğulanmışdır. Məsələnin ciddi olduğunu nəzərə alan Osmanlı dövləti 1312-ci il (1894/1895) tarixli teleqrafında [BOA - A.}MKT.MHM. 536 15 011] Van vilayətində və Mosulda olan hərbi qüvvələrin artırılmasına qərar vermişdir və vilayətdə yerləşdirilən taburların sayı doqquza çatdırılmışdır.

Tarixçi Tohid Məlikzadə də ermənilərin Salmasda bir terror mərkəzi yaratdıqlarını və silah hazırlanması üçün bir təsisat qurduqlarını yazmışdır. Buradaki Derik Manastrını isə silah-sursat anbarına çevirdiklərini göstərmişdir [Məlikzadeh, 1384, s.280].

Başbakanlık Osmanlı Arxivində qorunan 1894-cü il tarixli sənəddə [Osmanlı Belgelerinde Azerbaycan, 2015, s.226-230] isə Cənubi Azərbaycanın şimal-qərb ərazilərində ermənilərin artıq tədris müəssisələrinə təsir etmək istədikləri haqqında məlumat verilir. Təbriz yepiskopunun təzyiqi ilə ərazidə yerləşən məktəb müəllimlərinin sıxışdırılması və onların yerinə xüsusi dəstədən olan erməni şəxslərin yerləşdiriləməsinə cəhd edilməsi barədə olan bu məlumatları Təbriz şəhbəndəri [Osmanlı dövlətinin xarici ölkədəki nümayəndəsi, sonradan konsul (konsolos) adlandırılmışdır]. İhsan Hüsnü bəy göndərmişdir. O, həmçinin Osmanlı dövlətinə İran ərazisindən silah-sursat keçirilməsini qeyd etmişdir.

Hadisələrdən bəhs edən 1316-cı il tarixli digər Osmanlı sənədi [BOA - DH.TMIK.M.. 92 54 001] Xariciyə Nəzarət-i Cəliləsinə [Xarici İşlər Nazirliyi] göndərilmişdir. Məlumatda Başqala və ətrafında yaşamış, sonradan Salmas, Urmiya və Xoy bölgəsinə köç edən ermənilərin bəzi “ehval ve hareketi” haqqında bildirilir. Göstərilir ki, yaşayış yerlərindən izn almadan gedən bu şəxslər bu barədə verilmiş elanın çıxmasından keçən iki ay müddətində geri dönmədikləri halda Osmanlı dövləti tərəfindən qəbul edilməyəcəklər.

1316 (1898/1899) - 1318-ci il (1900/1901) tarixli sənəddə [BOA - DH TMIK 00092 0054 0011] isə maraqlı bir məlumatla rastlaşırıq. Məlumat Hoy və Salmas şehbəndərliyi tərəfindən yazılmışdır. Hesabat xarakterli məlumatda Osmanlı dövləti ərazisindən köçərək Salmas, Xoy və ətraf bölgələrə yerləşmiş ermənilər haqqında bir araşdırma aparıldığı göstərilir. Alınmış nəticələrə görə bölgəyə yerləşən ermənilərin bir qismi rəncbərlik və xidmətçilik edərək həyatlarına davam edirlər. Onlar buraya gəldiklərindən peşmandırlar və geri dönmək üçün bir çarə axtarırlar. İkinci qism ermənilər isə ticarətlə məşğul

olaraq məişətlərini idarə edirlər. Ermənilərin üçüncü hissəsi isə qaçaq və fəadilərdən təşkil olunmuş bir dəstə halındadırlar. Onlardan bəzisi müəllimlik edir, bəzisi işsiz gəzir, bəzisi isə Rusiyadan gələn ermənilərə qoşularaq "xoşagəlməz" hərəkətlərlə məşğul olurlar. Lakin onların "fesad ve fenalıklarına" imkan verilməyəcəyi də hesabatda vurğulanmışdır.

Sənədin ikinci hissəsində haqqında danışılan ermənilərin sayı göstərilmiş və onların həmin ərazilərdə hansı işlərlə məşğul olduqları dəqiqliklə qeyd olunmuşdur. Sənəddə göstərilir ki, Osmanlı dövlətində baş verən bəzi hadisələrdən sonra "qorxub qaçan" birinci qism ailələr rəncbərlik və xidmətçilik edirlər və onların sayı təxminən 300 ailədir. İkinci qism şəxslərin siyahıda adları göstərilmişdir: Van əhalisindən olan dərzi Digeran (Tiqran), vanlı bəzzaz [Parça satışı ilə məşğul olan tacir] Karapet, vanlı müəllimlik edən Kirkor, vanlı Xaçik Xaçatur, dərzi Kirkor, vanlı Urban, vanlı Neşan, izmirli Artin əfəndi və s. Üçüncü qism ermənilərin də adları siyahıda gstərilmişdir: keşiş Kivorq, onun qardaşı müəllim Riqran, papaz vekil Nerses, dərzi Manuk, həkim Akop, bitlisli Vartan, Petros oğlu Mihu, bitlisli Arutin, Mitran və b.

**3.Salmas XX əsrin əvvəllərində**

1322-ci (1904/1905) və 1324-cü il (1906/1907) tarixli osmanlı sənədində isə Rəvanın Üçkilisə nahiyəsinə tabe olan Üşülü kəndinin "əhalisindən olan və islam olduqlarını ifadə edən" dörd nəfər şəxsin Osmanlı torpaqlarına keçməsindən bəhs olunur. Həmin şəxslərin dediyinə görə, buna səbəb erməni "fədailərinin" evlərini talan edərək yandırdıqları olmuşdur. Onlar da "çoluk-çocuğu" ilə birlikdə dağlarda qalmış, daha sonra 300 ailə ilə Osmanlı tərəfinə keçmək istəmişlər. Ərzurum vilayətindən gələn xəbərdə dördüncü orduyi-humayuna [Osmanlı dövləti hərbi qüvvləri] osmanlı sərhədlərinin dəqiqliklə qorunması və "o tərəfdən" gələn təhlükənin heç bir halda bu tərəfə keçməsinə imkan verilməməsi tapşırılmışdır.

XX əsrin əvvəllərində bölgədə vəziyyət burada yerləşmiş qeyri-müsəlmanların yerli əhaliyə qarşı davam edən təcavüzkar və xain hərəkətləri nəticəsində artıq idarəolunmaz hala gəlirdi. Belə ki, 1909-cu il sənədində [Arşiv Belgelerinde Osmanlı-İran İlişkileri, 2010, s.412-413] bölgədəki təhlükəli vəziyyət təsvir olunur və ərazinin "fəsad" dəstələri tərəfindən hücumlara məruz qaldığı təqdirdə orada yaşayan 100 Osmanlı ailəsinin təhlükəsizliyi məqsədilə şəhbəndərxananın ciddi qorunması və işçilərin oradan köçürülməsinin vacibliyi xüsusi vurğulanmışdır.

Cənubi Azərbaycanın qərb bölgəsində qarışıqlıq və özbaşınalıq hallarının çoxalması əhalinin vəziyyətinin daha da pisləşməsinə səbəb olurdu. 1325-ci il (1907/1908) tarixli sənəddə [Arşiv Belgelerinde Osmanlı-İran İlişkileri, 2010, s.425-427] Xoy və Salmas şəhbəndər vəkilindən (köməkçi, müavin- Y.N.) Van valisi vasitəsilə Osmanlı dövlətinə göndərilən telegrafda dörd min rus əsgərinin Təbrizə gəlməsindən sonra Salmas və Xoy ərazilərinin digər

ərazilərlə əlaqəsinin kəsilməsi həyəcanla bildirilmişdir. Vəziyyətdən çıxmaq üçün əhali sərhəddəki Osmanlı qüvvələrinə müraciət edərək yaxınlıqdakı osmanlı kəndləri vasitəsilə əlaqəni bərpa etmək üçün kömək istəmişdir.

Qonşu İran ərazisində, xüsusilə Cənubi Azərbaycanda baş verən hadisələr Osmanlı dövlətini də bəzi təhlükəsizlik işlərini görməyə vadar edirdi. Sərhəd boyunca hərbi qüvvələrin yerləşdirilməsi, şəhərlərdə asayişin qorunması üçün mühafizə dəstələrinin sayının artırılması davam edirdi. 1325-ci il (1907/1908) tarixli sənəddə [Arşiv Belgelerinde Osmanlı-İran İlişkileri, 2010, s.429-433] əks olunan Sədrəzəm Hüseyn Hilmi paşanın hesabatında İrandakı vəziyyətlə əlaqədar bir sıra fikirlər ifadə edilmişdir. Onun qənaətinə görə, İran şahı Müzəfərəddin şah (1896-1907) tərəfindən qəbul edilən Məşrutənin (1905-1911) tərəfdarlarına təzyiqin artırılması üçün bəzi tədbirlərin görülməsi belə bir vəziyyətin yaranmasına səbəb olmuşdur. Sədrəzəmin yazdığına görə, İranda yerləşən şəhbəndərliklərə hücumlar edilmiş, iyirmidən çox osmanlı əsgəri və dinc əhali öldürülmüşdür. Bununla əlaqədar Osmanlı dövləti ilə həmsərhəd olan Salmas, Dilman, Xoy və Urmiya qəsəbələrinə müfrəzələrin [Hər hansı bir hərbi vəzifəni yerinə yetirmək üçün müvəqqəti təşkil olunan hərbi dəstələr] yerləşdirilməsinə başlanılmışdır.

I Dünya müharibəsi illərində Cənubi Azərbaycan yenə qızğın siyasi hadisələrin mərkəzlərindən birinə çevrilmişdi. Aclığın, səfalətin hökm sürdüyü bir vaxtda qeyd edilən bölgəyə toplaşan çoxsaylı erməni, aysor və s. qüvvələri təxribatçı fəaliyyətlərini genişləndirirdilər. Artıq evlərə deyil, dövlətin hərbi qüvvələrinə qarşı müqavimət göstərən bu dəstələrə burada qalmış rus qüvvələri də qoşulmuşdu. Onlar şəhər bazarlarında özbaşınalıq edir, əhalinin əlində olan əmlakını zorla alırdılar, dükanları yandırırdılar. 1335-ci il (1916/1917) tarixli sənəddə [BOA, DH.EUM.6.Sb] rusların Urmiyada yerləşən iki yüz dükanı yandırdığı haqqında xəbər verilir.

Urmiyadan sonra azğın dəstələr Cənubi Azərbaycanın qərb ərazilərində olan digər bazarları – Xoy şəhərinin bazarını, Səlmasda yerləşən dükanları yandırdılar və buradakı binaları dağıtdılar. Bazarların və ticarət obyektlərinin yandırılması bölgədə iqtisadi vəziyyəti acınacaqlı hala gətirmişdi. Rusların, erməni və digər təxribatçıların törətdikləri talanlar və azğınlıq səbəbindən əhali əkinçilik, heyvandarlıqla məşğul ola bilmirdi və nəticədə aclıq və səfalət, bahalıq yaranırdı. Kənd və qəsəbələr tədricən boşalırdı. Təxribatçı dəstələrdən qaçıb canını qurtarmaq istəyən əhali Tehrana və digər şəhərlərə üz tuturdular. Köçənlərin sayı minlərlə idi. Məlumatlara görə, qaçan insanlar yolda aclıq və səfalətdən kütləvi şəkildə qırılırdı. Belə ki, Salmasdan qaçmış 40 min nəfərdən 10 min nəfərin qalmadığı söylənilirdi [Səfəri, 2016, s.20-24].

Rusiyada baş verən siyasi-hərbi hadisələrlə əlaqədar bölgədən çıxmağa məcbur olan rus qüvvələri gedərkən silah-sursatı erməni dəstələrinə təhvil verirdilər. Bu isə onların daha da qüvvətlənməsinə və azğınlaşmasına şərait

yaradırdı. Quldur dəstələrin bölgə əhalisinə qarşı antimüsəlman fəaliyyəti, azğınlığı və təcavüzü 1918-ci ildə həmin ərazilərdə 200 min azərbaycanlının vəhşicəsinə qətli ilə nəticələndi [Səfəri, 2016, s.96]. 1918-ci ilin yazından başlayaraq Osmanlı ordusunun hərbi yürüşləri nəticəsində Cənubi Azərbaycanın qərb və şimal-qərb ərazilərində “qana susamış” dəstələrin özbaşınalığına müvəqqəti son qoyuldu [Səfəri, 2016, s.152-159].

**4.Nəticə**

Beləliklə, XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycanın ən qaynar ərazilərindən olan şimal-qərb və qərb bölgələrində siyasi-hərbi, ictimai-iqtisadi vəziyyətin olduqca gərgin olduğunu görürük. Qafqaz və Osmanlı dövləti arasında keçid bölgə kimi hər zaman Rusiyanın və qərb dövlətlərinin diqqət mərkəzində olan bu torpaqlar uzun müddət xarici təcavüzə məruz qalmış, siyasi intriqaların qurbanı olmuş, əhali istər daxili, istərsə də xarici silahlı dəstələrin törətdiyi qarət, yanğın və qətllərdən əziyyət çəkmişdir. Müxtəlif bəhanələrlə bölgəyə yerləşmiş silahlı erməni dəstələrinin özbaşınalığı insanları öz yerlərini tərk edib nisbətən sakit ərazilərə getməyə məcbur etmişdir. Osmanlı sənədlərindən də göründüyü kimi, silahlanmış erməni, rus dəstələri şəhər bazarlarını, dükanları, evləri qarət edir, hər tərəfə qorxu saçırdılar. Onların qarşısını almaq iqtidarında olmayan yerli əhali Osmanlı dövləti torpaqlarına qaçmağa cəhd edir, onlardan yardım istəyirdilər. İğtişaş və təcavüzün son nəticəsi kimi bu bölgədə tarixin ən qorxunc hadisəsi – 1918-ci il soyqırımı baş verdi. Müsəlman əhaliyə qarşı torədilən bu və digər vəhşiliklər Azərbaycan tarixinin bir parçası kimi yaddaşlarda qalmalıdır ki, bəşəriyyət özünə dərs çıxara bilsin.

## 5.ƏDƏBİYYAT

**1.** *Arşiv Belgelerinde Osmanlı-İran İlişkileri.* (2010). Ankara.
**2.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [A. MKT.MHM. 536/15/010].
**3.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [A. MKT.MHM. 550/25/007].
**4.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [A. MKT.MHM. 536/15/011].
**5.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [A. MKT.MHM. 536/15/002].
**6.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [DH.TMIK. 92/54/011].
**7.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [DH.TMIKM. 92/54/001].
**8.** Başbakanlık Osmanlı Arşivi. (t.y.). [Dahiliye Nezareti Emniyet-i Umumiye Müdüriyeti Altıncı Şube, 19/57/1335 Za 07].
**9.** Məlikzadeh, T. (1384 [2005]). *Tarix deh hezar sale Selmas ve Garb-i Azerbaycan*. Təbriz: Eldar.
**10.** (2015). *Osmanlı Belgelerinde Azerbaycan.* İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB) Yayınları.
**11.** Səfəri, H. (2016). *Cənubi Azərbaycan: 1918-ci il soyqırımı*. Bakı: Araz.

**12.** Vəliyeva-Önlen, Z. (2024). *Osmanlı sənədlərində Azərbaycan toponim və etnonimləri*. Bakı: Elm nəşriyyatı.

## REFERENCES

**1.** *Archival Documents on Ottoman–Iranian Relations.* (2010). Ankara. (in Turkish)
**2.** Prime Ministry Ottoman Archives. (n.d.). [A. MKT.MHM. 536/15/010]. (in Ottoman Turkish)
**3.** Prime Ministry Ottoman Archives. (n.d.). [A. MKT.MHM. 550/25/007]. (in Ottoman Turkish)
**4.** Prime Ministry Ottoman Archives. (n.d.). [A. MKT.MHM. 536/15/011]. (in Ottoman Turkish)
**5.** Prime Ministry Ottoman Archives. (n.d.). [A. MKT.MHM. 536/15/002]. (in Ottoman Turkish)
**6.** Prime Ministry Ottoman Archives. (n.d.). [DH.TMIK. 92/54/011]. (in Ottoman Turkish)
**7.** Prime Ministry Ottoman Archives. (n.d.). [DH.TMIKM. 92/54/001]. (in Ottoman Turkish)
**8.** Prime Ministry Ottoman Archives. (n.d.). [Ministry of Interior, Directorate of Public Security, Sixth Branch, 19/57/1335 Za 07]. (in Ottoman Turkish)
**9.** Melikzadeh, T. (1384 [2005]). *The Ten-Thousand-Year History of Salmas and Western Azerbaijan.* Tabriz: Eldar. (in Azerbaijani)
**10.** (2015). *Azerbaijan in Ottoman Documents.* Istanbul: Union of Turkish World Municipalities (TDBB) Publications. (in Turkish)
**11.** Seferi, H. (2016). *Southern Azerbaijan: The Genocide of 1918.* Baku: Araz. (in Azerbaijani)
**12.** Veliyeva-Onlen, Z. (2024). *Azerbaijani Toponyms and Ethnonyms in Ottoman Documents.* Baku: Elm Publishing. (in Azerbaijani)